

*Seyran CAVADOV*

## *Bir də dəyişməsin*

Atam üç əlifba
dəyişmişdi,
Mən də ikisini
dəyişdim.
Oğlumun da bəxtinə
ikisi düşdü.
İlahi! Heç olmasa,
Sən özün bundan
belə
Nəvələrimizi,
bizdən sonra
dünyaya
gələnlərimizi
Belə dəyişmələrdən,
Bir gün nala,
Bir gün mıxa
vurmaq təhlükəsindən,
qorxusundan,
arzusundan
Qoru, hifz elə.

## *Sinoptiklərin məlumatı*

*Bakının yeli əsdi,*
*Əsib səbrimi kəsdi.*
*(El bayatısından)*

Sinoptiklər xəbər verir:
Payız yağmurlu,
Qış da sərt
keçəcək.
Gələn həftədən isə
küləklər əsəcək.
Havanın hərarəti
Kəskin şəkildə
Aşağı düşəcək.
Qərb küləyi axşam
saatlarında
əvvəl Şərq,
Sonra Şimal küləyinə
keçəcək,
Daha da şiddətlənəcək.
Sürəti saatda
otuz kilometrə
çatacaq.
Aman, Allah! Deməli,
Şimal küləyi
yenə
Meydan sulayacaq,
Tufan qoparacaq.
Gərək pəncərələri
Bərk-bərk bağlayaq.
Papağımızı, şlyapamızı
Başımızda möhkəm-
möhkəm
saxlayaq.

## *Hər kəsin öz dərdi*

Dərdlər də cürbəcür,
çeşid-çeşiddir.
Elə insanların özləri
kimi,
Böyüyü-kiçiyi,
Cılızı-nəhəngi,
Bir də qurğuşun
ağırlığı var.
Hərəsini də öz
sahibi,
Öz yiyəsi var.
Batmanla gəlişi,
Misqalla gedişi var
onların.
Dərdsiz insan yoxdur.
Birinin dərdi
mal-dövlət,
sərvətdi.
Digərinki şan-şöhrətdi.
Başqa birisininki
Ar-namus, qeyrətdi.
Daha çaqasınınkı
Vətəndi,
torpaqdı,
Qürbətdə qalan
həsrətdi.
Eh... Kim bilir,
Nə qədər dərdlər var
dünyada...
İnsanların, ulduzların
sayından da
Qat-qat çox.
Bir sözlə, hər kəsin
Öz dərdi var
Arzusu, amalı, ürəyi
boyda.